**Azərbaycan Prezidenti 21-ci əsrin 21-ci ilinin 2-ci ayının 1-ci günündə, əlifba sırasında birinci gələn rayonumuzda səfərdə oldu, bir sıra sosial obyektlərin açılışında iştirak etdi, tarixi nitq söylədi, dövlət televiziyasına müsahibə verdi. Abşeron səfəri Prezidentin bu il ölkə içində ikinci səfəridir. Prezident öncə, işğaldan azad edilmiş Şuşaya səfər etmişdi. İstər Şuşada, istər Abşeronda verilən ismarıclar əsasən eyni hədəfli, eyni istiqamətli idi. Abşeronda da sözün zirvəsi Şuşa idi, Qarabağ idi, Azərbaycan idi... Şuşada da sözün zirvəsi Qarabağ idi, Azərbaycan idi...**

# *Vətənə xidmətin, fədakarlığın necəliyi...*

Müzəffər ordumuzun parlaq qələbəsi yeni müstəvi, yeni ortam yaradıb. Və ölkə başçısı bu yenilikləri ümum ölkə, ümumxalq maraqlarına yönəldir, ölkənin çiçəklənməsinə yönəldir, xalqı yeni uğurlara səfərbər edir. Bugünkü Şuşa deyilişindən, Şuşa çağırışından bir də ötən ilin bu vaxtlarındakı Şuşa narahatlığımıza ayna tutaq. Keçmiş olsun o illər, o narahatlıqlar. Ötən il bu vaxtlar qondarma rejim qondarma "prezident", "parlament" seçkilərinə hazırlıqlar içindəydi – yadellilər bizim torpaqlarda, bizim qanunlarla daban-dabana ziddiyyət təşkil edən hoqqalardan çıxırdı. Az sonra qanunazidd hərəkətlərdən heyssiyyətimizə daha ağır şəkildə toxunmağa keçdilər – qondarma rejimin oyuncaq "başçısı" Şuşada "and içdi", qondarma "parlament"in Şuşaya köçürülməsi planı işə düşdü… Və təlxək Paşinyan Şuşanı su yoluna döndərdi, şərab içdi, ağnadı, oynadı, halay çəkdi.

Belə bir söz var, özünü öndəki ilə müqayisə edib kədərlənmə, arxadakına baxıb, sevinmə, özünü özünlə müqayisə et. Dünən haradaydım, bugün haradayam, sabahım necə olacaq? Budur məsələ. Və mən dövlət başçısının Abşerondakı çıxışını, müsahibəsini, bax, bu "dünən – bugün – sabah yolu"nda böyük tablo, hadisələr silsiləsi kimi gördüm. İlham Əliyev çiçəkləyən, böyüyən, qalib ölkə quruculuğunun mükəmməl zərgəridir. Burada, zərgər incəliyi beynəlxalq siyasətdə usta gedişlər, beynəlxalq hüquqa istinadlar, dəvətlər, daxili siyasətdə vətənə, xalqa bağlılıq, Şuşa qədirbilənliyi, açıq fikirlilik, bir sözlə, siyasət və dövlət xadimliyi ilə səciyyələnir. İş yalnız əllə deyil, habelə əllə və ürəklə də deyil, əl – ürək – ruh birliyi ilə görüldükdə uğur ardınca uğur gəlir, zirvə ardınca zirvə qazanılır. Və "Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik". Prezident İlham Əliyev bunu 16 iyul 2020 – ci ildə Nazirlər Kabinetinin 2020 – ci ilin I yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında demişdi.

Bildirmişdi ki, "Biz lazım olan vaxtda lazım olan addımları atırıq və atacağıq. Mən hələlik bundan artıq heç nə demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm. Azərbaycanda hadisələri qabaqlamağı heç kimə məsləhət görmürəm. Buna ehtiyac yoxdur. Bu, zərərli ola bilər".



Sonrakı hadisələri yadımıza salaraq, cənab Prezidentin nələri nəzərdə tutduğunu bugün hamımız təqdirlə dərk edir, qürur duyuruq.

Abşeronda verilən ismarınclarda ən yeni səhifə düşməndən azad edilmiş Şuşaya məmur marağı barədə idi. "Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm. Ona görə hərə otursun yerində, öz işi ilə məşğul olsun, məni də əsəbləşdirməsin". Elə yalnız bu aforizmə çevrilmiş deyimdən də görmək olar ki, ölkə yeni fazaya keçib. Birmənalı olaraq, bunu dost da, düşmən də qəbul etməlidir. Bəzi məmurlarımız sanki ali məktəbə qəbul olurlarmış kimi yeni reallıqlardan imtahan verməlidir. Şuşanın, ölkənin, Prezidentin adına layiq rəftar göstərmək imkanı olmayanlar öz kollec taleləri ilə barışmalıdırlar. Texniki Peşə Liseyi alternativi də təqdim oluna bilər.

Bütün hallarda, qalib ölkənin məmuru üçün mənəvi attestasiyadan keçməyin bir yolu Vətən imtahanı, vicdan imtahanı verməkdən keçir. Qarabağın mahiyyətini bilməkdən, necə deyərlər, siyasi paytaxtda oturub, Mədəniyyət paytaxtının mahiyyətini duymaqdan, paytaxtdan paytaxta xidmət etməkdən, Vətənə xidmətdən keçir… Unudulmamalıdır: Vətənə xidmətin necəliyini, fədakarlığın necə olduğunu Şuşanı azad edən Vətən oğulları müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə, cəmi 3 – 5 ay öncə göstəriblər...

***Əkbər QOŞALI***

Xalq qəzeti 2021.- 10 fevral.- S.4.